# Gəncədə Türkiyə Cümhuriyyətinin yaranmasının 99-cu ildönümü qeyd olunmuşdur







**Gəncədə Türkiyə Cümhuriyyətinin elan olunmasının 99-cu ildönümü münasibətilə tədbir keçirilmişdir.**

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk, Gürcüstanın Gəncədəki Baş konsulu Nikoloz İaşvili, Samux və Göygöl rayon rəhbərlərinin, şəhər ictimaiyyəti nümayəndələrinin iştirak etdikləri tədbir Türkiyə Cümhuriyyətinin qurulması, eləcə də Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi, Azərbaycan və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlamışdır.

Sonra Zeki Öztürk tədbir iştirakçılarını Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin 99-cu ildönümü ilə əlaqədar Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi məktubun mətni ilə tanış etmişdir. Baş konsul çıxışında türk xalqının istiqlal mübarizəsindən, Türkiyə Cümhuriyyətinin bugünkü inkişaf və tərəqqisindən danışmış, Azərbaycan və Türkiyə arasında olan tarixi dostluq, qardaşlıq münasibətlərindən söz açmışdır.

Niyazi Bayramov isə çıxışında 99 il ərzində Türkiyənin böyük və şərəfli yol keçdiyini bildirmişdir: "Bu gün Türkiyə dünyanın siyasi xəritəsində mühüm yer tutur. Ölkələrimiz arasındakı əlaqələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşlıq və dostluq münasibətləri əsasında gündən-günə daha da inkişaf edir".

Çıxış edən digər qonaqlar da Türkiyə Cümhuriyyətinin son illər keçdiyi inkişaf yolundan, Vətən müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi qardaşlıq dəstəyindən danışmış və əminlik ifadə edərək demişlər ki, qardaş ölkə bundan sonra da öz dövlətçilik ənənələrinə və prinsiplərinə sadiq qalaraq müstəqillik, demokratiya və iqtisadi yüksəliş yolu ilə inamla irəliləyəcək.

Tədbir Türkiyə Cümhuriyyətinin elan edilməsinin 99-cu ildönümünə həsr olunan videoçarxın nümayişi və geniş konsert proqramı ilə davam etmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyəti dünya ölkələrində də rəğbətlə qarşılanır

Yaradılmasının 10 illiyi qeyd edilən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi (NGBM) Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2011-ci il sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 30 sentyabr 2012-ci ildə Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilmişdir.

Dövlət başçısının dəstəyi ilə fəaliyyətini davam etdirən mərkəz ətrafında müxtəlif xarici ölkələrin keçmiş dövlət və hökumət başçılarını, habelə nüfuzlu beynəlxalq ekspertləri birləşdirir. Bakıda yerləşən mərkəzin ali idarəetmə orqanı dünyanın nüfuzlu ictimai və siyasi xadimlərindən ibarət idarə heyətidir. İdarə heyəti 20 nəfər üzvdən ibarətdir. Mərkəzin Avropa qitəsindən 25 ölkədən 53, Amerika qitəsindən 2 ölkədən 6, Asiya qitəsindən 12 ölkədən 15, Afrika qitəsindən 4 ölkədən 5 üzvü var.

Mərkəzin həmsədrləri Latviya Respublikasının sabiq prezidenti (1999-2007) xanım Vayra Vike-Freyberqa, Dünya Bankının sabiq vitse-prezidenti (1992-2000) İsmail Serageldindir.

Azərbaycanın təşəbbüsü ilə yaradılan Bakı Prosesi artıq qlobal hərəkata çevrilib və BMT tərəfindən dəstəklənir. Xatırladaq ki, mərkəz 2013-cü ildən etibarən Bakı şəhərində keçirilən Qlobal Bakı Forumunun əsas təşkilatçısıdır. Foruma məhz Bakının evsahibliyi etməsi də təsadüfi deyil. Bu amili Prezident İlham Əliyevin həyata keçirdiyi fəal praqmatik siyasət, dünya miqyasında nüfuzlu siyasətçi imici, liderlik xüsusiyyətləri, Azərbaycanın artan beynəlxalq nüfuzu, beynəlxalq məsələlərin tənzimlənməsində mühüm yeri və rolu şərtləndirir. Mərkəz Podgoricki Klubu (Bosniya), Marianna V.Vardinoyannis Vəqfi (Yunanıstan), Quqenhaym (ABŞ), Çin İnnovasiya və İnkişaf Strategiyası İnstitutu (ÇXR), Çin Xalq Xarici İşlər İnstitutu (ÇXR), Taihe İnstitutu (ÇXR), Amerika Xarici Siyasət üzrə Milli Komitə (ABŞ), Berqqruen İnstitutu, Robert F.Kennedy İnsan Hüquqları (ABŞ), Schvarzman Alimləri (ÇXR), İtalyan Beynəlxalq Təşkilatları Cəmiyyəti (İtaliya), Dünya Sənət və Elm Akademiyası (WAAS) kimi nüfuzlu beynəlxalq və regional təşkilatlarla sıx əməkdaşlıq edir. Bu nüfuzlu qurumların iştirakı ilə Azərbaycanın yürütdüyü dünyəvi siyasət, nəinki regionda, bütün dünyada sülhün bərqərar olması istiqamətində irəli sürdüyü səmərəli təşəbbüslər, habelə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfələr beynəlxalq ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. İndiyədək Bakıda dünya siyasətçilərinin və iqtisadçılarının marağına səbəb olan 9 belə forum keçirilib.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

Görüşdə İsmail Serageldin son dövrlərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nüfuzunun dünyada daha da artdığını vurğulayaraq beynəlxalq təşkilatlar və bir sıra ölkələrin aparıcı institutları ilə birbaşa əlaqələrinin yaradıldığını deyib. Cari ildə Çində və Polşada həmin ölkələrin prezidentlərinin himayəsi altında keçirilən beynəlxalq konfranslarda, BMT Baş Assambleyası çərçivəsində ABŞ-də, Cenevrədə Ümumdünya Səhiyyə Təşkilatı və BMT-nin Cenevrə ofisi və Berlində Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə təşkil olunan tədbirlərdə, həmçinin Yaponiyada baş tutan Texnologiya Sammitində və Latviyanın paytaxtında keçirilən "Riqa konfransı 2022"də tərəfdaş kimi çıxış etdiklərini diqqətə çatdırıb. O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Daha sonra mərkəzin təsis olunmasının 10 illik yubileyi münasibətilə xatirə hədiyyələrini dövlət başçısına təqdim edib.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yubileyi münasibətilə təbriklərini çatdırıb və yubileyin Bakıda qeyd edilməsinin rəmzi xarakter daşıdığını bildirib. Dövlət başçısı mərkəzin beynəlxalq səviyyədə əməkdaşlığının genişlənməsindən, dünyada rolunun və nüfuzunun artmasından məmnunluğunu ifadə edib.

Görüşdə vurğulanıb ki, Azərbaycan Prezidentinin himayəsi altında Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən hər il keçirilən Qlobal Bakı Forumu artıq bütün dünyada aktual məsələlərin müzakirə olunduğu və onların həlli istiqamətində yeni yanaşmaların təklif edildiyi beynəlxalq platforma kimi qəbul olunur.

Məmnunluq doğuran odur ki, fəaliyyət və nüfuz dairəsi ildən-ilə genişlənən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dünyadakı dəyişikliklərə çevik reaksiya verərək, mühüm məsələlərin müzakirə olunduğu intellektual dairələri birləşdirən aparıcı mərkəzə çevrilmişdir. Ötən ilin noyabrında uğurla başa çatan Qlobal Bakı Forumuna 300-dən çox yüksəksəviyyəli nümayəndənin, intellektual dairənin qatılması bunu bir daha təsdiq etmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycan Texnologiya Universiteti yeni inkişaf mərhələsindədir

**Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev fenomeni öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə, müasir, qüdrətli Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub.**









Məhz Ulu Öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək dünyanın dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Ümummilli Liderin siyasi məktəbinin layiqli davamçısı, təcrübəli və praqmatik siyasətçi olan Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmizdə qlobal yeniləşmə prosesinin və dinamik təkamülün vüsət alması məmləkətimizin daha sürətlə sivil dünyaya inteqrasiya olunmasına gətirib çıxarıb. Bütün sahələrdə qeydə alınan inkişaf təhsil sahəsinin müasir tələblər səviyyəsinə çatdırılmasını da labüd edir. Təhsilin inkişafı nəticəsində formalaşmış insan potensialı, başqa sözlə, insan kapitalı ölkənin iqtisadi və sosial rifahının artırılmasında çox əhəmiyyətli yer tutur. İnsanların yetərli bilik və bacarıqlar əldə edərək cəmiyyətdə özünə yer tapmasında təhsil, xüsusilə də ali təhsil ən mühüm vasitələrdən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin "Təhsildə islahatlar dərinləşməlidir" tələbi savadlı və milli dəyərlərə sədaqətli kadrların hazırlanmasını inkişafın ən vacib amili kimi müəyyənləşdirən Ümummilli Lider Heydər Əliyev tərəfindən 1970-ci ildə əsası qoyulan Azərbaycan Texnologiya Universiteti qarşısında da bir sıra öhdəliklər qoyub. Məhz bu öhdəliklərin icrası naminə Azərbaycan Texnologiya Universitetində rektor vəzifəsini müvəqqəti icra edən dosent Yaşar Ömərovun rəhbərliyi ilə təhsilin keyfiyyətinin artırılması, şəffaflığın təmini və digər vacib məqamlarla bağlı işlərə başlanılıb. Azərbaycan Texnologiya Universiteti informasiya texnologiyaları, kompüter mühəndisliyi, logistika və nəqliyyat texnologiyaları mühəndisliyi, metallurgiya mühəndisliyi, nəqliyyat mühəndisliyi, proseslərin avtomatlaşdırılması mühəndisliyi, radiotexnika və telekommunikasiya mühəndisliyi, qida mühəndisliyi, şərabçılıq, turizm bələdçiliyi, turizm işinin təşkili, biznesin idarəedilməsi, dövlət və bələdiyyə idarəetməsi, iqtisadiyyat, mühasibat, ekologiya mühəndisliyi və eləcə də digər ixtisaslar üzrə kadrlar hazırlayan ali təhsil müəssisəsi kimi mühüm əhəmiyyət daşıyır. Təhsildə qazanılan uğurların işıqlı gələcəyimizə xidmət etməsi, qlobal səviyyədə təhsil sahəsində ortaya çıxan yeni çağırışlar və Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsinə daxil olması Texnologiya Universitetinin fəaliyyətini keyfiyyətli, müasir tələblərə uyğun, şəffaf və nəticəyönümlü qurmasını şərtləndirir. Artıq təhsilə qoyulan investisiyaların ən mühüm xüsusiyyətinin azalan deyil, artan məhsuldarlığa malik olmasını əsas götürən ali təhsil müəssisəsində yenilik və inkişaf, tədrisin səviyyəsinin yüksəldilməsi üçün münbit şəraitin yaradılması, ədalətli və peşəkar idarəetmə, müəllim nüfuzunun artırılması, şəffaf və dünyəvi tədris prosesinə nail olunması, tədris prosesinə nəzarət, monitorinq, qiymətləndirmə, iqtisadiyyat, sənaye və digər sahələr üçün istedadlı, savadlı, bacarıqlı kadrların yetişdirilməsi əsas işin qayəsidir. Bununla yanaşı, son zamanlar müasir və səmərəli ali təhsil mühitinin təmin edilməsi məqsədilə çevik idarəetmə, ictimai hesabatlılıq, universitetin strukturunun yenilənməsi, təhsilverənlərin və təhsilalanların hərtərəfli inkişafı və sosial rifahı, tələbəyönümlülük və cəmiyyətə fəal inteqrasiya məsələlərinə böyük əhəmiyyət verilir. Bu gün gənclər arasında Azərbaycan Texnologiya Universitetində təhsil almağa marağın artması bu deyilənlərin qısa müddətdə həyata keçirilməsində öz bəhrəsini verdiyini göstərir. Bu il universitetə qəbul olunan tələbələrin say və keyfiyyət tərkibində əsaslı dəyişikliklər baş verib. 2022-2023-cü tədris ili üzrə 97 faiz bakalavr, 97,2 faiz magistr qəbulu göstəriciləri ilə 9 region universiteti arasında ikinci yerdə qərarlaşan Azərbaycan Texnologiya Universiteti son 30 ilin ən yüksək nəticələrinə nail olub. UTECA-da magistrların sayının artırılması gələcəkdə universitetin tədqiqat mərkəzinə çevrilməsinə, elmi fəaliyyətin və təhsil-elm-istehsalat əlaqələrinin güclənməsinə şərait yaradacaq.

Təhsilin keyfiyyəti, tədris prosesinin yüksək səviyyədə aparılması üçün lazımi, yəni münbit mühitin olması şərtdir. Odur ki, son 3 ayda universitetin resurslarının artırılması, auditoriyaların, iş otaqlarının təmiri yönündə ali təhsil müəssisəsinin büdcəsi hesabına əməli işlər aparılıb. Ali təhsil müəssisəsinin həyəti səliqə-sahmana salınıb, yaşıllıqlar, ağac və gül kolları əkilib. Şanlı Azərbaycan bayrağının yüksəklikdə dalğalandığı meydan yaradılıb. Bu görüntü bütün universitet kollektivinə qürur və fəxarət hissi yaşadır. Cəmiyyətin hərtərəfli inkişafında həlledici faktora çevrilən təhsildə müsbət nəticələrə nail olmaq üçün müəllim nüfuzunun artırılması, işçi məmnuniyyətinin əldə olunması da mühümdür. Odur ki, UTECA-da professor-müəllim və işçi heyətinə xüsusi diqqət və qayğı ilə yanaşılır, onların bilik və bacarıqlarını artırması, elm və təhsil sahəsində yeni nailiyyətlər əldə etmələri üçün lazımi şərait yaradılır və dəstək verilir. Bu ilin sentyabr ayında Azərbaycan Texnologiya Universitetində Elmi Şuranın qərarı ilə müəllimlərin əməkhaqqı 20 faiz artırılıb. Peşəkar kadrlar yetişdirməyi hədəfləyən ali təhsil müəssisəsinin auditoriyalarında fənlərin tədrisinin keyfiyyətinin artırılması, müəllimlərin gündəlik fəaliyyətinə yaradıcı yanaşmalarının təmin olunması diqqətdə saxlanılır. Gənclərin xalqına, vətəninə və dövlətinə bağlı layiqli vətəndaş kimi yetişdirilməsini əsas vəzifələrindən biri kimi diqqət mərkəzində saxlayan universitetdə təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəminin daha da yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Bu məqsədlə universitetin şəhid məzunlarının ailələri ziyarət edilir, Şəhidlər xiyabanında əziz xatirələri anılır, anım tədbirləri keçirilir, qazi məzunlarla görüşlər təşkil edilir. Universitet rəhbərliyinin təşəbbüsü ilə Zəfər Gününə həsr olunan Respublika elmi-praktik konfransı, elmi-praktik seminarlar, rəsm sərgisi, fləşmob, idman yarışları keçiriləcək.

Uğurun əldə edilməsi məqsədilə müəllim və gənclər tərəfindən irəli sürülən ideya və təkliflər dəstəklənir və ideyaların icrası üçün şərait yaradılır. Tələbələri təhsilə, elmə həvəsləndirən tədbirlər həyata keçirilir. Onlar üçün nüfuzlu şirkətlərdə təcrübə keçmək imkanı yaradılır. Fəallığı, savadı və bacarığı ilə seçilən məzunların həmin müəssisələrdə işlə təmin olunması üçün təşəbbüs göstərilir. Bir çox gəncin, tələbənin arzusu olan xaricdə təhsil imkanı yaradan "Erasmus+" proqramı çərçivəsində Almaniya, İspaniya, Polşa, Slovakiya kimi bır sıra ölkələrdəki ali təhsil müəssisələri ilə əməkdaşlıq həyata keçirilir, tələbə mübadiləsi aparılır. Bakalavr, magistr və doktorantlar bu imkandan lazımınca yararlana bilirlər. Sevindirici hal odur ki, xaricdə təhsil alan gənclər daha sonra universitetə dönərək fəaliyyətlərini UTECA-da davam etdirmək istəyirlər və bunu reallaşdırırlar. Bunun real nəticəsi olaraq cari tədris ilində universitetin məzunu olmuş, eyni zamanda "Erasmus+" proqramı çərçivəsində İspaniyada 1 semestr təhsil almış magistr tələbəmiz Ramil Həsənov UTECA-nın menecment kafedrasında assistent müəllim vəzifəsinə təyin olunub. Bu məqam da Azərbaycan Texnologiya Universitetinin yeni inkişaf xəttinə qədəm qoymasının göstəricisidir. Ali təhsil müəssisəsində xarici ölkələrin təhsil, elm sahəsini təmsil edən, bu sahələrlə əlaqəli işləyən nüfuzlu nümayəndələrlə görüşlər də təhsilin, tədris prosesinin müasirləşməsinə töhfəsini verir.

Universitetin müxtəlif idman növlərinə aid komandaları şəhər spartakiadalarında, ölkə səviyyəli turnirlərdə nailiyyətlər qazanırlar ki, bu da gənclərin asudə vaxtlarının səmərəli təşkilinə hesablanan işlərin tərkib hissəsidir. Keyfiyyətli ali təhsil naminə bütün bu işlər, irəliləyişlər həm kollektiv, həm də tələbələr tərəfindən böyük rəğbətlə qarşılanır. Göründüyü kimi, universitetin missiyası mühüm sahələrdə texnologiyaların inkişafına təkan verən yüksəkixtisaslı kadrlar yetişdirməkdir. Əminliklə demək olar ki, ölkə rəhbərinin təhsilə sonsuz diqqət və qayğısından güc alan universitetin bütün fəaliyyət istiqamətləri üzrə əldə olunan nailiyyətlər təhsil müəssisəsinin müasirləşməsi yolunda qarşıya qoyulan strateji hədəflərə yaxınlaşmasına böyük zəmin yaradır. Universitet rəhbərliyinin amalı gənclərdə elmə, biliyə, texnologiyalara, innovasiyalara maraq və həvəsi maksimum dərəcədə artırmaq, ali təhsil müəssisəsinin nüfuzunu yüksəltmək və davamlı inkişafını təmin etməkdir.

***Raqif HÜSEYNOV,***
***Azərbaycan Texnologiya Universitetinin Tədris şöbəsinin müdiri,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# Mingəçevir Dövlət Universiteti beynəlxalq təşkilatın idarə heyətində təmsil olunacaq

Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov oktyabrın 25-dən 28-dək İrlandiyanın paytaxtı Dublin şəhərində Beynəlxalq Universitetlər Assosiasiyasının (IAU) 16-cı Baş Konfransında iştirak edib.



INTERNATIONAL ASSOCIATION OF UNIVERSITIES
INTERNATIONAL UNIVERSITIES BUREAU

Universitetdən AZƏRTAC-a bildirilib ki, Dublin Universitet Kollecinin (UCD) evsahibliyi etdiyi konfrans "Universitetlərin gələcək cəmiyyətə uyğunluğu və əhəmiyyəti" mövzusuna həsr olunub. Konfransa 100-ə yaxın ölkədən 300-dən artıq universitet rektoru, ali təhsil üzrə ixtisaslaşan beynəlxalq və regional təşkilatların rəhbərləri qatılıb.

Konfransın açılışında IAU prezidenti Pam Fredman, İrlandiyanın ali təhsil naziri Simon Harris, UCD prezidenti səlahiyyətlərini icra edən Mark Rogers və UNESCO-nun baş direktorunun təhsil üzrə köməkçisi Stefania Giannini çıxış ediblər.

MDU-nun rektoru Ş.Bayramov konfrans çərçivəsində keçirilən "Ali təhsilin transformativ gücü" (The Transformative Power of Higher Education), "Bir-birinə bağlı gələcək üçün bilik sistemlərinin açılması" (Unlocking Knowledge Systems for an Interconnected Future), "Sabahın dünyası üçün öyrətmək və öyrənmək" (Teaching and Learning for Tomorrow's World) və "Qarşılıqlı bağlılıq və qlobal kontekstdə ali təhsilin gələcəyi" (The Future of Higher Education in an Interconnected and Global Context) adlı bölmə iclaslarında müzakirələrdə fəal iştirak edib. Bölmə iclaslarında postpandemiya dövründə ali təhsil, rəqəmsallaşma, beynəlmiləlləşmə, Davamlı İnkişaf Məqsədləri və universitetlərin davamlı inkişafda artan rolu, elmin açıqlığı, universitetlərin təhsil, tədqiqat və cəmiyyətə xidmət missiyasına yeni baxış, lokal və qlobal çağırışların balanslı şəkildə nəzərə alınması və universitet dəyərləri barədə müzakirələr aparılıb. Müzakirələr zamanı universitetlərarası əməkdaşlıq və rəqabət, ali təhsildə müxtəliflik, akademik azadlıq, universitetlərin muxtariyyəti, elm, texnologiya və innovasiya arasında qarşılıqlı bağlılıq və təsir, kurikulumun davamlı təkmilləşdirilməsi, bilik, bacarıq və səriştə arasında qarşılıqlı bağlılıq, təhsildə sosial ədalət və hamı üçün bərabər imkanlar, gələcəyin vətəndaşının hazırlanmasında ali təhsilin əvəzolunmaz rolu və ali təhsildə qazanılan müsbət təcrübənin bölüşdürülməsi məsələlərinin önəmi vurğulanıb.

Tədbir çərçivəsində Ş.Bayramov müvafiq universitetlərin rektorları ilə çoxsaylı ikitərəfli görüşlər keçirib. Görüşlər zamanı rektor MDU-nun strateji hədəfləri, yeni dövrün universitetinə çevrilmə yolunda atılan addımlar barədə ətraflı məlumat verib, IAU çərçivəsində universitetlərarası əməkdaşlıqdan gözləntilərini diqqətə çatdırıb.

Bundan əlavə, 16-cı Baş Konfrans çərçivəsində IAU-nun əvvəlki dövr üçün hesabatı, 2022-2030-cu illər üzrə strategiyası və 2022-2026-cı illər üzrə büdcəsi müzakirə və təsdiq edilib. Həmçinin IAU-nun "Qlobal ümumi rifah naminə ali təhsil müəssisələrinin rəqəmsal dünyada transformasiyası" adlı qətnaməsi qəbul olunub.

Konfrans 2022-2026-cı illər üçün IAU prezidentinin və idarə heyəti üzvlərinin seçilməsilə öz işinə yekun vurub. MDU-nun rektoru Ş.Bayramov IAU İdarə Heyətinə üzv seçilib.

Məlumat üçün bildirək ki, IAU İdarə Heyəti təşkilatın əsas idarəedici qurumudur və üzvləri dörd il müddətinə seçilir. Hazırda 17 üzvü var. İdarə heyəti hər il toplanır, Baş Konfransın qərarlarının icrasını təmin edir və İAU Katibliyinin işinə rəhbərlik edir. Onun işlərinin bir hissəsi konkret komitələr və işçi qruplar vasitəsilə həyata keçirilir.

Qeyd edək ki, MDU cari ildən IAU-nun üzvüdür. IAU 1950-ci ildə UNESCO-nun himayəsi altında yaradılmış qlobalmiqyaslı üzvlük əsaslı təşkilatdır. Ali təhsil sahəsində dünyanın ən böyük təşkilatı hesab edilən IAU dünyanın 130-dan çox ölkəsinin 600-dən artıq universitetini birləşdirir. IAU dünya ali təhsil ictimaiyyətinin nümayəndələrini, ekspertləri və universitet liderlərini ali təhsil sahəsində qlobal gündəliyə aid əsas məsələlərə həsr olunan beynəlxalq konfranslar və görüşlərdə, tematik ixtisaslaşdırılmış seminarlar və vebinarlarda bir araya gətirən beynəlxalq şəbəkələşmə və əməkdaşlıq platforması kimi çıxış edir.